

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*

*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 16 (1009) | 31 avqust 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Prezident İlham Əliyev "Qarabağ" futbol klubunun heyətini qəbul edib

Prezident İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın "Qarabağ" futbol klubunun heyətini qəbul edib.

Görüşün sonunda Prezident İlham Əliyev demişdir:

- Mən sizin qələbənizi çox yüksək qiymətləndirirəm. Bu, tarixi qələbədir. Bu qələbə tarixə yazılıbdır və çox ədalətlidir ki, məhz "Qarabağ" klubu bu qələbəyə imza atdı. Mən sizi bir daha təbrik edirəm, gələcək uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, siz qrup mərhələsində də ölkəmizi layiqincə təmsil edəcəksiniz. Sağ olun.

Görüşdə komandanın rəhbərləri çıxış edərək onlara göstərdiyi diqqət və qayğıya görə cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər və əmin etdilər ki, bundan sonra da qələbə uğrunda var qüvvələri ilə çıxış edəcək, onlara göstərilən etimadı doğruldacaqlar.

Sonda xatirə şəkli çəkdirildi.





## Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunda iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin başçılıq etdiyi, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq prezidentləri Rosen Plevneliev və Petar Stoyanov, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, İsrailin sabiq Prezidenti Dalia İtzik, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciya və Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətinin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul edib.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq aləmdə nüfuzunun getdikcə artdığı, tərəfdaşlarının çoxaldığı, fəaliyyət istiqamətlərinin genişləndiyi vurğulandı və Mərkəzin gələcək fəaliyyəti ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunun əhəmiyyəti qeyd edildi.

## Qışa hazırlığın vəziyyəti müzakirə olundu

Rayoin icra hakimiyyəti başçısı yanında keçirilən növbəti Şura iclasında rayonda qışa hazırlığın vəziyyəti geniş müzakirə olundu. Məsələ ilə əlaqədar Memarlıq və Tikinti şöbəsinin müdiri Sənan Mustafayev yığıncaq iştirakçılarına ətraflı məlumat verdi. O,qeyd etdi ki, qış mövsümünə hələ xeyli vaxt qalmasına baxmayaraq rayonun bütün idarə, müəssisə və təşkilatlarında qışa hazırlıqla əlaqədar əməli tədbirlər görülür.

Ağstafa Elektrik Şəbəkəsində qış mövsümünə hazırlıqla əlaqədar ötən dövrdə müəyyən işlər görülmüş, yarımstansiyalarda, transformator məntəqələrində, elektrik hava xətlərində təmir işlərinə başlanılmışdır. Əhalinin fasiləsiz olaraq elektrik enerjisilə təmin olunması üçün əvvəlki illərdə mövcud olan bütün problemlər demək olar ki, aradan qaldırılmışdır.

Normal həyat tərzi üçün lazım olan mühüm amillərdən biri və ən vacibi olan təbii qaz yanacağı problemi artıq rayonda demək olar ki, tam həll olunmaq üzrədir. Rayonun 39 yaşayış məntəqəsindən 36-na təbii yanacaq verilmiş, qalan üç yaşayış məntəqəsində yaşayan əhalinin ilin sonunadək təbii yanacaqla təmin edilməsi üçün əməli tədbirlər görülür.



Rayonun ümumtəhsil məktəblərində qışa hazırlığın vəziyyəti də diqqət mərkəzində saxlanılmış, yay tətili günlərində bütün ümumtəhsil məktəblərində cari və əsaslı təmir işləri görülmüş, məktəblərdəki istilik sistemləri qaydaya salınmışdır.

Ağstafa şəhərində mövcud olan kommunal mənzillərdəki problemlərin həll edilməsi üçün müvafiq təşkilatların rəhbərlərinə konkret tapşırıqlar verilmiş və bu tapşırıqların icrası daim nəzarətdə saxlanılmışdır. Şəhərdəki bütün kommunal mənzillərin dam örtükləri təzələnmiş və həmin mənzillərin həyətlərində abadlıq işləri görülmüş, əhalinin istirahəti üçün lazımi şərait yaradılmışdır.

Şəhər əhalisinin içməli su təminatı demək olar ki tam həll olunmuş, əhaliyə 24 saat içməli su verilməsi tam nəzarətə götürülmüşdür. Bütün bunlar əhali tərəfindən razılıqla qarşılanmışdır.

Şura iclasınad müzakirə edilən məsələ ilə əlaqədar müvafiq idarə, müəssisə və təşkilatların rəhbərlərinin məlumatları da dinlənilmiş, qışa hazırlıqla əlaqədar narahatlıq doğuran məsələlər onların nəzərinəçatdırılmış, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün onlara vaxt verilmiş və iclasda geniş qərara qəbul olunmuşdu.




# Tələbə gənclərlə görüş

Ölkəmizdə gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir. Bu siyasətin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Ölkəmizdə gənclərlə keçirilən hər bir görüşdə məqsəd onların dövlət mənafeyi ətrafında sıx birləşməsi olmuş və bu gün də həmin istiqamətdə əməli tədbirlər görülür.

Bu günlər Rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayon İcra hakimiyyəti başçısı aparatının konfrans zalında ölkəmizdə və xaricdə ali təhsil alan ağstafalı gənclərlə keçirdiyi görüş maraqlı olmuşdur. Səmimi keçən görüşdə icra başçısı ölkəmizin uğurlu daxili və xarici siyasətindən, sürətli və dinamik sosial-iqtisadi inkişafından, yaradılmış davamlı ictimai-siyasi sabitliyindən, eləcə də ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq son illərdə Ağstafada həyata keçirilən irimiqyaslı sosial infrastruktur layihələrdən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən geniş bəhs edilmişdir. Görüşdə qeyd olundu ki, sağlam düşüncəyə, təfəkkürə, yüksək əqidəyə malik gənclərin formalaşması ulu öndərin qarşıya qoyduğu prioritet vəzifələrdən olmuşdur. Bu gün Azərbaycanda gənclər siyasətinin uğurla həyata keçirilməsi ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi strategiyasının nəticəsidir.

Tədbirdə çıxış edən bir sıra gənclər öz arzu və təkliflərini də irəli sürdülər. Müxtəlif ölkələrdə və müxtəlif təhsil ocaqlarında təhsil alan gənclər bu gün Azərbaycanın inkişafından qürur duyduqlarını və bu cür görüşlərin dövlətin gənclərə göstərdiyi qayğının təzahürü olduğunu bildirdilər.

# Şəhər sakinləri ilə növbəti səyyar görüş

Ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq vətəndaşların arzu, istək və təkliflərinin öyrənilməsi, qaldırılan məsələlərin operativ həll olunması məqsədi ilə rayon İcra hakimiyyəti başçılarının səyyar qəbulları davam etdirilir. Rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev bu günlər şəhərin 23 və 24 saylı çoxmənzilli yaşayış binalarının sakinləri ilə görüşmüş, onlarla səmimi söhbət aparmışdır. Görüşdə rayon İcra hakimiyyəti başçısı aparatının məsul işçiləri, müvafiq idarə, müəssisə və təşkilat rəhbərləri, eləcə də həmin binaların sakinləri iştirak etmişlər.

İcra başçısı görüşdə iştirak edənlərə ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına əsasən Ağstafada reallaşdırılan genişmiqyaslı abadlıq-quruculuq, sosial infrastruktur layihələr və hazırda bu istiqamətdə uğurla davam etdirilən layihələrin icrası barədə ətraflı məlumat verdi. Sakinlərə bildirildi ki, onların yaşadıqları binalarda da təmir işlərinin aparılması üçün müvafiq hazırlıqlar görülür və yaxın vaxtlarda bu işə başlanılacaqdır.

Tədbirdə çıxış edən sakinlər son illər rayonda görülən abadlıq-quruculuq işlərindən, şəhər küçələrinin yenidən qurulmasından və təmizliyindən danışaraq ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər. İcra başçısı səyyar görüşdə sakinlər tərəfindən qaldırılan məsələlərin həll olunması istiqamətində aidiyyatı üzrə idarə, müəssisə rəhbərlərinə konkret tapşırıqlar verdi.



# Qarayazıya gedən yol

Yol həyatdır. Hər bir sürətli inkişafın ilkin mərhələsi yoldan başlayır. Odur ki, respublikamızın hər yerində ölkə rəhbərliyinin diqqət və qayğısı, tapşırığı əsasında yolların yenidən qurulması, abadlaşdırılması üçün böyük işlər görülür. Ötən beş il ərzində rayonumuzda bu istiqamətdə çox böyük işlər görülmüş, 200 kilometrə yaxın yolda yenidənqurma, abadlıq işləri aparılmış, yüksək keyfiyyətli asfalt örtük salınmışdır.



Kür çayının sol sahilində yerləşən Qarayazı, Soyuqbulaq , Həzi Aslanov yaşayış məntəqələrinə gedən yolda aparılan yenidənqurma işlərində ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bu günlər Rayon İcra Hakimiyyətinin başçısı M.Quliyev yolda gedən işlərlə yaxından tanış olmaq üçün həmin qəsəbəyə getmiş, yolda çalışan işçilərlə görüşmüş onlarla söhbət aparmışdır. Uzunluğu 9,5 kilometr olan Soyuqbulaq-Qarayazı avtomobil yolunda artıq demək olar ki, işin yarıdan çoxu görülmüş, Həzi Aslanov-Qarayazı yaşayış məntəqələrinə gedən yollara asfalt örtük salınmışdır. Yol inşaatçıları hazırda həmin ərazidən Böyükkəsik qəsəbəsinə gedən yolda çalışır və bu yolda da işlərin tam başa çatdırılması üçün var qüvvə ilə işləyirlər.

M.Quliyev avtomobil yolunda işlərin gedişi ilə tanışlıqdan sonra Qarayazı qəsəbəsində oldu və orada açıq havada qəsəbə sakinləri ilə görüşdü. İcra başçısı görüş iştirakçılarına ölkəmizdə aparılan nəhəng quruculuq-abadlıq işlərindən danışdıqdan sonra qərb bölgəsinin sürətlə inkişaf edən Ağstafa rayonunda görülən işlər barədə məlumat verdi. O qeyd etdi ki, son illər rayonda aparılan nəhəng işləri sadalamaqla qurtarmaq olmaz. Bütün bunlar Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin ağstafalılara göstərdiyi diqqət və qayğının parlaq təzahürüdür. Ölkə rəhbərinin ağstafalılara göstərdiyi qayği bu gün də davam etməkdədir. Ölkə başçısının fərmanına əsasən Kür çayının sol sahil yaşayış məntəqələri olan Ağgöl kəndi, Qarayazı, Soyuqbulaq və Həzi Aslanov qəsəbələrində əhalinin içməli su təminatının yaxşılaşdırılması ilə əlaqədar işlərə də başlanılmışdır. Yaxın gələcəkdə bu yaşayış məntəqələrinin sakinləri fasiləsiz olaraq içməli su ilə təmin ediləcəkdir.

M.Quliyev görüş iştirakçılarına müraciət edərək heç nədən çəkinmədən arzu və təkliflərini söyləməyi, onları narahat edən məsələlərdən, kəndin problemlərindən danışmalarını təklif etdi. Bundan sonra kənd sakinləri Elxan Mustafayev, İmran Nəbiyev çıxış edərək bildirdilər ki, Qarayazı qəsəbəsində yaşayanları narahat edən məsələlərdən biri və ən başlıcası yol problemi idi. Bu gün qəsəbə sakinlərin sevincinin həddi hüdudu yoxdur. Qəsəbəyə gələn yola yüksək keyfiyyətli asfalt örtüyün salınması hamını ürəkdən sevindirir. Odur ki, biz qəsəbə əhalisinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə dərin minnətdarlığımızı bildiririk.



M.Quliyev görüşdən sonra qəsəbədəki uşaq baxçası körpəklər evindəki vəziyyətlə maraqlandı. Baxış zamanı baxçada olan problemlərin həll olunması üçün müvafiq təşkilat rəhbərlərinə lazımi tapşırıqlar verdi.



# Yay tətilində olan tələbələrin ekskursiyası

Rayon İcra hakimiyyəti başçısı aparatının konfrans zalında keçirilən görüş tədbir iştirakçılarında böyük təəssuratlar yaratmışdır. Tədbirdə ölkə rəhbərliyinin göstərişi ilə Ağstafada inşa olunmuş və eləcə də icrası davam etdirilən bir sıra mühüm layihələrlə yerində tanış olmaq məqsədi ilə ekskursiyalar təşkil olunmuşdur.

Tələbələr ekskursiyaya Heydər Əliyev Mərkəzindən başlamışlar. Rayon İcra hakimiyyəti başçısı aparatının və rayon Təhsil şöbəsinin məsul işçilərinin müşaiyəti ilə həyata keçirilən növbəti ekskursiya isə "Ağstafa Aqroservis" MMC-də təşkil olunmuşdur. Gənclər "Ağstafa Aqroservis" MMC-nin II layihəsini təşkil edən, Bakı-Qazax magistral yolunun kənarında 3,5 ha ərazidə inşa edilən Ağstafa taxıl və un məmulatları kombinatının tikintisi, taxıl toxumu emalı sahəsinə, taxılın çeşidlərə ayrılması və qablaşdırılması prosesinə, 30 min ton məhsulun saxlnaması üçün taxıl və hazır məhsul anbarı ilə yerində tanış olmuşlar. Həmçinin gənclər inşaası davam etdirilən ofis mərkəzi, marketinq, satış sahəsi, 200 nəfərə xidmət edəcək "Fast food" tipli iaşə xidməti sistemi, yeniyetmə və uşaqlar üçün əyləncə mərkəzi, 300 oturacaq yerlik konfrans salonu,140 yerlik yeraltı avtomobil dayanacağına da nəzər saldılar. Onlara məlumat verildi ki, müəssisənin əsas fəaliyyət növü kənd təsərrüfatı məhsullarının istehsalı üzrə xidmətlərin göstərilməsi ilə yanaşı, ağstafalılar və rayonumuza gələn qonaqların asudə vaxtlarının ən müasir və yüksək səviyyədə təşkil olunmasından ibarətdir.






# Köhnəqışlaq kənd tam orta məktəbin yeni binası istifadəyə tam hazırdır






Ötən dərs ilində Ölkə rəhbərliyinin müvafiq tapşırığına əsasən Köhnəqışlaq kəndində inşaasına başlanılmış 108 şagird yerlik tam orta məktəb binası istifadəyə tam hazır vəziyyətdədir. Binanın inşası zamanı coğrafi mövqey baxımından təhlükəsizlik amilləri tam nəzərə alınmışdır. İki mərtəbəli məktəb binasında xarici dil və informatika dərsləri kabinetləri müvafiq proqram təminatlı kompüter avadanlıqlarla təchiz edilmiş, əyani vəsaitlər quraşdırılmış, fənn laboratoriyaları yaradılmışdır. Bütün bunlarla yanaşı binadakı idman və akt zalları, kitabxana, sinif və inzibati otaqlar da ən müasir inventarlarla təchiz olunmuşdur. Burada müəllim və şagirdlər üçün nəzərdə tutulmuş sanitar qovşaq otaqları da ən yüksək səviyyədədir. Bina fərdi qazanxana tipli istilik sistemi ilə təmin olunmuşdur. Binanın həyətində açıq tipli idman meydançası yaradılmış, ətraf tamami ilə abadılaşdırılmışdır.

Yeni tədris ilində müəllim və şagirdlərin istifadəsinə veriləcək yeni məktəb binası təbii ki, gənc nəslə göstərilən dövlət qayğısının parlaq təzahürü olacaqdır.

# Vurğun-Köhnəqışlaq avtomobil yolunda yenidənqurma işləri sürətlə davam edir

Beş yaşayış məntəqəsini birləşdirən və uzunluğu 24 km olan Vurğun-Köhnəqışlaq avtomobil yolunun əsaslı yenidən qurulması işləri sürətlə davam etdirilir. "Azəravtoyol" ASC tərəfindən eni 12 metr olan və 3-cü texniki dərəcəyə uyğun tikilən yolda artıq torpaq işləri görülmüş, yeni yol yatağı inşa olunmuşdur. Hazırda Həsənsu çayı üzərində körpünün təmiri və Sağ Sahil kanalı üzərində yeni körpünün tikintisi davam etdirilir. Avtomobil yolunda işlər tam olaraq yekunlaşdıqdan sonra yol nişanları və məlumatverici lövhələr, yolcizgi və yol göstərici xətlər çəkiləcəkdir. Avtomobil yolunun yenidən qurulması müvafiq qrafikə uyğun, texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılır. İşlərin qısa müddət ərzində yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb olunmuşdur.






# Payızlıq əkinə başlanıldı

2017-ci ilin bol məhsulu uğrunda gərgin mübarizə aparan taxılçılar minbir zəhmətlə yetişdirdikləri məhsulu tarlalardan itgisiz yığıb anbarlara təhfil verdilər.

Rayon Kənd Təsərrüfatı idarəsindən əməkdaşımıza bildirdilər ki, bu il arpa əkilmiş sahələrin hər hektarından 25,5 sentner, buğda əkilmiş sahələrin hər hektarından 30,5 sentner məhsul tədarük olundu. Bu rəqəmlər rayonumuz üçün keçən illərlə müqayisədə yüksək göstəricidir. Əldə edilmiş nailiyyətlər taxılçılarımızı daha da ruhlandırmış, gələn ilin bol məhsulu üçün bütün qüvvələri səfərbər etmişlər.

Cari ildə rayonda 12 min hektar sahədə payızlıq əkin aparılması nəzərdə tutulmuşdur. Ötən dövrdə artıq 5 min hektardan çox sahədə şum qaldırılmışdır.

Payızlıq əkin əsasən taxıl biçini yekunlaşdırılmış sahələrdə aparılır. Yaxın günlərdə günəbaxan əkilmiş sahələrdə yetişdirilən məhsul yığıldıqdan sonra həmin sahələrdə də payızlıq əkinin aparılması nəzərdə tutulur.

## *Redaksiyamızın qonağı*

# Rayonumuzun fəxri

***Qonağımız çox sadə, təvazökar və səmimi təsir bağışlayan bir qızdır. O, belə xasiyyətə malik olmağı ilə yanaşı həm də alimdir. Söhbətinin məntiqli, dünya baxışlı və səriştəli danışığı ilə hiss etdirir ki, yaxşı pedaqoqdur. Gənc olmasına baxmayaraq məsləhətli danışığı, müasir həyata münasibəti öyrədənlər cərgəsində olduğunu isbat edir.***

***Bəli, bu keyfiyyətlərə malik olan qonağımız Aysel Ruflan qızı Rəhimovadır. Doğma və əziz saydığı Ağstafa rayonunda boya-başa çatıb. Orta təhsilini texniki humanitar təmayüllü liseydə alıb. İstək və arzusunun dalınca Bakı Dövlət Universitetinin kimya fakültəsinə qədəm qoyub və sevib bəyəndiyi fakültənin 2005-ci ildə tələbəsi olub.***

Lakin tələbə olmaq işin bir tərəfidir. Əsas məsələ tələbəliyi necə başa vurmalısan. Təqaüd xatirinə, yoxsa yaxşı mütəxəssis olmaq üçünmü oxumalısan? Aysel ikinci xətti əsas götürüb elimli, savadlı olmağı üstün tutub çalışmağa girişdi. Gününü kitabxanalarda, əlavə ədəbiyyatlar oxumaqda keçirdi. Beləliklə doğrudan da başqalarından fərqləndi, seçildi, bəyənildi. Beş ilin tamamında fərqlənmə diplomuna layiq görülüb. Bundan dərhal sonra kimya fakultəsinin qeyri-üzvü kimya ixtisasına maqistratura pilləsinə qəbul olunub.

Yenə arzu, istək üstün gəlib. Aysel daha dörd il Azərbaycan Milli Elmlər Akademiyasının Aşqarlar kimya institutunda doktorantura təhsili alıb. Onunla kifayətlənməyən gənc rəhbərliyin məsləhət və göstərişlərilə 2016-cı il aprelin 15-də "kimya üzrə fəlsəfə doktoru" adını almaq üçün müdafiə edib. Bakı Dövlət Universitetinin qeyri-üzvü kimya kafedrasında elmi işçi vəzifəsində işləməyə başlayan Aysel universitetdə kimya fənnindən dərs deyir.

Özü dediyi kimi, maraqlı və çətin elmdir. Çox çalışmaq, elmi araşdırmalar aparmaq lazım gəlir.



Müasir qeyri-üzvü kimya analiz və sintezlə ynaşı kimyəvi birləşmələrin əmələ gəlməsi, parçalanması şəraitini öyrənir. Qeyri-üzvü kimyanın praktiki tədbiq sahələri çox genişdir. Xalq təsərrüfatında, tikintilərdə, tibbdə işlədilən bir çox mühüm maddələr məhz onun son nailiyyətləridir. Gənc alim və pedaqoq Aysel Rəhimova da bu sahənin tədqiqatçısıdır. Onun elmi araşdırmaları Avropa və Amerikanın bir çox nüfuzlu jurnallarında dərc olunmuşdur. Onun bu istiqamətdə göstərdiyi fəaliyyətini və apardığı tədqiqat işlərini Azərbaycan akademiklərindən V.M.Abbasov, V.M.Fərzəliyev, professor T.M.İlyaslı yüksək qiymətləndirmişlər.

Hazırda gənc pedaqoq və alim qədim elm ocağında öyrədənlər sırasında ilhamla, qürurla fəaliyyət göstərir. Onun tanınmış müəllim və professorlarla yanaşı adımlaması heç də səbəbsiz deyil. Ziyalı nəslinə mənsub olmağı buna zəmanətdir. Belə ki, onun babası da pedaqoq olmuş, yeniyetmələrin təlim-tərbiyəsinə ömrünü sərf etmişdir. Uzun müddət babası Mustafa Rəhimov Köçəsgər kənd orta məktəbinin direktoru işləmişdir. Hətta Səməd Vurğunun əsərlərində təlim-tərbiyə mövzusunda dissertasiya müdafiə etmişdir. Baba və nəvənin arasındakı fərq ondan ibarətdir ki, indi nəvə tələbələri öyrədir, onları mütəxəssis kimi hazırlayır. Yeri gəlmişkən mühüm bir amili də qeyd etmək yerinə düşərdi. Aysel müəllimə universitetdə həm də zirək tələbələrə ingilis dilini öyrədir. İngilis dilini öyrənən kimyaçılara şirkətlərin qapıları söz yox ki, açıq olacaqdır.

Bütün bu keyfiyyətləri Aysellə görüşümüzdə söhbət edə-edə qeyd etdik. Yaxın bir qohumu ilə gəlmişdi. Redaksiya qonaqlı-qaralı olduğu üçün çox da təəccüblənmədik. Adətən bizə həmişə gənc şairlər müraciət edirlər. Bu dəfə söhbət başqa məcraya yön aldı... Beləliklə, söhbətimizdən aydın oldu ki, yay tətilində ata evində istirahətdə olarkən rayonumuzda gedən quruculuq, abadlıq işləri Ayselin xoşuna gəlmişdir. Qərara alıb ki, yerli qəzet vasitəsilə dövlətimizin rəhbərlərinə görülən işlər barədə öz təşəkkürünü bildirsin.

Biz də bu nəcib və xeyirxah görüşdən istifadə edərək onun özü haqqında yazmağı qərara aldıq. Belə şəxslər rayonumuzun fəxridirlər.

***Söhbəti yazdı***
***Qəhrəman Qurbanov.***

# Unutma! Düşmən səni dinləyir!







***Bu gün böyük qürur hissi ilə demək olar ki Azərbaycan dünyanın ən inkişaf etmiş, normal həyat tərzi mövcud olan təhlükəsiz, stabil, multikultural dövlətlərdən biridir.***

***Son illər ölkəmizdə keçirilən siyasi, iqtisadi əhəmiyyətli tədbirlərdə, böyük idman yarışlarında dünyanın ən inkişaf etmiş ölkələrinin nümayəndələrinin, qonaqların, idmançıların iştirak etməsi, onların ölkəmiz haqqında dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrdə söylədikləri fikirlər bütün bunları bir daha təsdiqlədi.***

Artıq demək olar ki, bütün dünya dövlətlərinə yaxşı məlumdur ki, Azərbycan torpaqlarının 20 faizi erməni işğalçıları tərəfindən zəbt olunmuş və bu torpaqların geri qaytarılması barədə ən nüfuzlu beynəlxalq təşkilatların bəyənnamələr verməsinə baxmayaraq düşmən öz işğalçılıq siyasətindən əl çəkmir. Çünki bugünkü ermənistan dövlətinin başçıları hakimiyyət kürsüsünə demokratik yolla deyil qan tökməkbaşqa dövlətlərin torpaqlarını işğal etmək yolu ilə gəlmişlər. Onlar yaxşı bilirlər ki, Azərbaycan xalqı bir qarış da olsun torpağından keçməyəcək hansı yolla olur olsun işğal olunmuş bütün torpaqları geri qaytaracaqlar.

Aprel döyüşləri bunu bir daha sübut etdi və bu gün Lələtəpə yüksəkliyində Azərbaycan dövlətinin bayrağının dalğalanması, Cocuqmərcanlıya qaçqın və köçkün ailələrinin qayıtması bu yaşayış məntəqəsindən Şuşaya gedən yolun təməlinin qoyulması yaxın vaxtlarda erməni xalqının işğalçı, qantökən dövlət başçılarını mühakimə edəcəkləri günün yaxınlaşdığından xəbər verir.

Azərbaycan əsgərləri sərhədlərimizdə ayıq-sayıq dayanmışlar. Heç şübhə yoxdur ki, onların valideynləri, yaxın qohumları, dostları əsgərlərimizlə tez-tez görüşür, telefon əlaqəsi saxlayırlar. Söz yox ki, bu danışıqlar öz gözündə tiri görməyən başqasının gözündə tük axtaran düşmən tərəfindən dinlənilir. Onlar adi bir nöqsanı şişirdib dağa döndərməyə çalışır və bununlada dövlətimizə ləkə yaxmağa bəhanə axtarırlar.

Bugünkü inkişafımızı gözü götürməyən təkcə nankor ermənilər deyil belələrinə tək-tük də olsa öz aramızdada təsadüf olunur. Özünü bu vətənin övladı hesab edən hər bir vətəndaş gərək belə nankorlara yerindəcə öz sözünü desin və dünyaya günəş kimi doğan Azərbaycana açıq gözlə baxmağı onlara təklif etsin. Hamı bilməlidir ki, Azərbaycan bu gün ən güclü dövlətdir və onun məğlub edilməz, işğal olunmuş torpaqları geri qaytarmağa qadir olan güclü ordusu vardır. Ona görə də bizim hər birimiz diqqətli olmalı, telefon danışıqlarımıza, söhbətlərimizə fikir verməli və unutmamalıyıq ki, düşmən bizi dinləyir.

***İbrahim Əliyev***

# Ağstafada yeni sərinləşdirici içkilər zavodu inşa ediləcək

Ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq son illər Ağstafa rayonunda da yeni-yeni istehsal, sənaye, emal və xidmət sahələri yaradılıb istifadəyə verilmiş və bu istiqamətdə işlər uğurla davam etdirilir. Hazırda Ağstafa da daha bir istehsal sahəsinin, "ATİLO" MMC sərinləşdirici içkilər zavodunun inşasına başlanılmışdır. Bu layihə tamamilə müasir texnologiyalara əsaslanan istehsal sahəsidir. Bakı-Qazax avtomobil magistralının kənarında, Dağ Kəsəmən kənd ərazisində inşa olunan zavodda pivə istehsalı, sərin içkilər istehsalı, şüşə qablar (0.5 l) istehsalı və sərin içki məhsullarının saxlanılması və qablaşdırılması kimi sahələr fəaliyyət göstərəcəkdir. İstehsal müəssisəsində xammal kimi regionda mövcud olan təbii resurslardan istifadə nəzərdə tutulur. İstehsal olunacaq məhsullar isə əsasən daxili bazara yönəldiləcəkdir. İstehsalda istifadədən sonrakı qalan qalıqlar (solotların) heyvandarlıqda yem kimi istifadə oluna biləcəkdir. Layihədə istifadə ediləcək avadanlıqların və pivə istehsalı üçün "solot" və "xmel" in Avropa ölkələrindən gətiriləcəkdir. İstehsal müəssisəsin 2018-ci ilin may ayında istifadəyə verilməsi planlaşdırılır. Tam fəaliyyətə düşdükdən sonra isə burada 150 nəfər daimi işlə təmin olunacaqdır.



# Açıq havada Karate-do yarışı keçirildi





Bu günlər rayon İcra hakimiyyətinin təşəbbüsü və Ağstafa rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında karate-do idman növü üzrə uşaq və yeniyetmələrar asında ənənəvi idman birinciliyi keçirilmişdir. Gənclər Mərkəzinin önündə açıq hava şəraitində keçirilən yarış parkda istirahət edən sakinlərin də diqqətini cəlb etdi. Bu da yarış iştirakçılarının daha həvəslə çıxış etmələrinə səbəb oldu.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən birincilikdə rayon idmançıları ilə yanaşı Qazax idmançıları da öz güclərini sınadılar. Bu cür yarışların keçirilməsinin əsas məqsədi yay mövsümündə gənclərin asudə vaxtlarının daha səmərəli təşkil olunması, idmana olan marağın artırılmasıdır.Yarışın qalibləri müvafiq diplomlarla təltif edilmiş və sonda xatirə şəkilləri çəkdirmişlər.

# Etibarsız sayılır

Həsənsu kənd sakini Şabanov Yaşar Muxtar oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-105 nömrəli (kod 50202028) Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa rayonu S.Vurğun qəsəbə sakini mərhum Əyyubov Rasim Vəli oğlunun adına verilmiş 495 nömrəli Qeydiyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhəri R.Əsədov küçəsində yaşamış, mərhum Ramazanova Maytı Koroğlu qızının adına olan 230 saylı Qeydiyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Köçəsgər kənd sakini Murquzov Rafət Yolçu oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair 44 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Xətai kənd sakini Quliyev Səftər Abdulrəhim oğlunun adına verilmiş 561 nömrəli Qeydiyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa rayonu Xətai kəndində yaşamış mərhum Qəhrəmanov Telman Musa oğlunun daına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-563 F nömrəli (kod 50208018) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

***Redaksiya heyəti***

*L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*